13 (1319) 4-10 aprel 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUQ, QARDAŞLIQ VƏ MÜTTƏFİQLİK ƏLAQƏLƏRİ BÜTÜN İSTİQAMƏTLƏRDƏ UĞURLA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə "ASELSAN" şirkətinin baş direktoru Ahmet Akyol, "ASFAT" şirkətinin baş direktoru Behçet Karataş, "HAVELSAN" şirkətinin baş direktoru Mehmet Akif Nacar, "Maşınqayırma və Kimya Sənayesi" şirkətinin baş direktoru İlhami Keleş, "REPKON Grup" şirkətinin prezidenti İbrahim Külekçi, "ROKETSAN" şirkətinin baş direktoru Murat İkinci, "Müdafiə Texnologiyaları və Mühəndislik" şirkətinin baş direktoru Özgür Güleryüz, "Türkiyənin Aviasiya və Kosmos Sənayesi - TUSAŞ" şirkətinin baş direktoru Temel Kotil daxildir.

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olunub, Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi vurğulanıb.

Prezident İlham Əliyev Türkiyə hərbi sənaye kompleksinin məhsullarının keyfiyyət və səmərəliliyə görə artıq dünya səviyyəsində məhsurlaşdığını məmnunluqla qeyd edib. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanda müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımların atıldığını vurğulayıb və bu baxımdan Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını deyib.

## SANKT-PETERBURQ ŞƏHƏRİ İLƏ ƏMƏKDAŞLIQ ÖLKƏLƏRİMİZ ARASINDA ƏLAQƏLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ TÖHFƏDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul edib.

Görüşdə Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Sankt-Peterburq şəhəri ilə əməkdaşlığının ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Aleksandr Beqlov arasında bundan əvvəl keçirilən görüşlər məmnunluqla xatırlanıb, Sankt-Peterburq şəhərinin qubernatorunun ölkəmizə səfərinin səmərəli nəticələr verəcəyinə əminlik ifadə olunub və bu səfərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirilib.

Görüşdə ticarət, iqtisadi, investisiya imkanlarının genişləndirilməsi, humanitar, mədəniyyət, təhsil sahələrində müvafiq qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

## AZƏRBAYCAN ŞAXƏLƏNDİRİLMİŞ ŞƏKİLDƏ RUMINİYANIN ENERGETİKA BAZARINA DAXİL OLMAĞI HƏDƏFLƏYİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq əlaqələrinin məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirilib.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu qeyd edərək, dövlət başçıları, eləcə də digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanda enerji sektorunda, xüsusilə indiki dövrdə yaşıl enerji sahəsində böyük layihələrin reallaşdırıldığını deyərək, ötən ay Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmini vurğulayıb.

Söhbət zamanı energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq, Azərbaycandan təbii qazın və Qara Dəniz vasitəsilə yaşıl enerjinin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, LNG, yaşıl enerji və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir və Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndiyinə toxunulub, ötən il ticarət dövriyyəsinin daha əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatdığı qeyd olunub, investisiya sahəsində də əməkdaşlığın möhkəmləndiyi bildirilib. SOCAR-ın Rumıniyada çox aktiv fəaliyyətinə toxunularaq onun bu ölkənin yanacaq bazarında kifayət qədər əhəmiyyətli yer tutduğu diqqətə çatdırılıb.

## AZƏRBAYCANLA ÇİN ARASINDA MÜNASİBƏTLƏR DİNAMİK VƏ SABİT İNKİŞAF EDİR

Milli Məclisin sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qo Min ilə görüşüb.

Görüşdə S.Qafarova Azərbaycan ilə Çin arasında münasibətlərin yüksək inkişaf dinamikasına malik olduğunu qeyd edib. Ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən Milli Məclisin sədri Azərbaycan və Çinin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, xanım Qo Minin ölkəmizdəki diplomatik fəaliyyəti dövrü də əlaqələrimizin inkişafı ilə xarakterizə olunub.

Görüşdə Heydər Əliyev Fondunun iki ölkə arasında mədəni və humanitar əlaqələrdə mühüm rol oynadığı diqqətə çatdırılıb. Qeyd olunub ki, Çinin Xarici Ölkələrlə Dostluq Xalq Cəmiyyəti ilə birgə müxtəlif layihələr uğurla həyata keçirilir.

Söhbət zamanı bildirilib ki, ölkələrimiz üçün xüsusi əhəmiyyət daşıyan məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycan hər zaman birmənalı olaraq "vahid Çin" siyasətini, Çinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Çin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hər zaman dəstək verib. O cümlədən ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək göstərir.

Səfir Qo Min deyib ki, Azərbaycanla Çin arasında münasibətlər dinamik və sabit inkişaf edir. Diplomat əlaqələrin inkişafında dövlət başçıları arasında münasibətlərin vacib rolunu vurğulayıb.

# YENİ MİLLİ HƏDƏFLƏRƏ DOĞRU

*(əvvəli ötən sayımızda)*

**Hədəflərimizdən biri Böyük Qayıdışı sürətlə həyata keçirməkdir**

2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, 2023-cü ildə isə Qarabağda erməni separatizminə son qoyulması Azərbaycanda dövlət səviyyəsində qarşıda duran vəzifələri yeniləyib. Hazırda Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycan dövlətinin milli prioritetidir. Bu vəzifə həm də milli ideya olaraq elan edilmişdir.

Ötən 3 il ərzində işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı həyata keçirilən kompleks tədbirlər göstərir ki, bu milli ideya sürətlə reallaşaraq həyata vəsiqə almaqdadır. Müqayisəli şəkildə qeyd etmək olar ki, Azərbaycan 1 Livan dövləti, 4 Lüksemburq dövlətinin torpaqları qədər qədər bir ərazini sıfırdan başlayaraq yenidən qurur. Rəqəmlə göstəsək, 10 min kvadratkilometrdən çox olan ərazidə 8 şəhər, onlarla kənd salınır, hərtərəfli infrastruktur qurulur, yollar çəkilir, tunellər inşa olunur, elektrik stansiyaları və yarımstansiyaları yaradılır, beynəlxalq hava limanları tikilib istifadəyə verilir.

İndiyədək Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinə Azərbaycan dövləti 12 milyard manat manat vəsait ayırıb ki, bu da dövlətimizin iqtisadi qüdrətinin real ifadəsidir.

Dövlətimizin iradəsinə uyğun olaraq postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları böyük tikinti meydanına çevrilib. Xarabalıqlar üzərində yeni şəhərlər, kəndlər ucaldılır. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq 5 mindən çox keçmiş köçkün öz doğma torpaqlarına qayıdıb.

Təkcə 2023-cü il ərzində görülmüş işlər göstərir ki, Azərbaycan dövləti işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı, sistemli və kompleks quruculuq nümunəsi yaradır və həyata keçirilən bərpa işlərinin miqyası olduqca nəhəng və əzəmətlidir. 2023-cü ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı. Avqust ayında Füzuli şəhərinə və Zabux kəndinə soydaşlarımızın köçü baş tutdu. Ötən il Müstəqillik Günündə Laçın şəhərinə keçmiş məcburi köçkünlər qayıtdılar. Bundan əvvəl isə ilk olaraq Ağalı kəndində məskunlaşdırma həyata keçirilib.



Azərbaycanın ilk addımlarını atdığı bu yeni başlanğıcın əsas tarixi vəzifələrindən biri də şanlı Qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun tam bərpası, torpaqlarımızın minalardan təmizlənməsi, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışıdır.

Andiçmə mərasimində Prezident İlham Əliyevin dediyi kimi, cari ilin sonuna qədər yenidən qurulmuş 20 yaşayış məntəqəsinə soydaşlarımızın qayıtması planlaşdırılır: ***"Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir".***

Bizim ən böyük istəyimiz regionumuzda daimi sülhün, davamlı inkişafın, bütün maraqlı tərəflərin faydalana biləcəyi qarşılıqlı əməkdaşlıq mühitinin olmasıdır. Bu gün Azərbaycan dövləti təkcə yurdlarımızı yenidən qurmur, illərlə doğma torpaqların həsrətini çəkən həmvətənlərimizi əzəli məskənlərimizə yetirmir, eyni zamanda bölgəmizin ekologiyasına sahib çıxır, qırılan meşələrimizi həyata qaytarır, zəhərlənən çaylarımızı təmizləyir. Ermənistan bir neçə onillik ərzində Qarabağda, Şərqi Zəngəzurda ağır cinayət əməlləri törətmişdi.

*(davamı 3-cü səhifədə)*

# Yaponiya ilə iqtisadi əlaqələrin inkişafı imkanları müzakirə edilib



Yaponiya ilə iqtisadi əlaqələrin inkişafı, o cümlədən bu ölkənin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.
İqtisadiyyat naziri Mikayıl Cabbarov Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabe ilə görüşüb. Görüşdə ölkəmizin Yaponiya ilə əməkdaşlığın inkişafına önəm verdiyi vurğulanıb. Qeyd olunub ki, rəqəmsal iqtisadiyyat və dördüncü sənaye inqilabı texnologiyalarının tətbiqi, enerji və digər sahələrdə tərəfdaşlığın inkişafı prioritet məsələlərdəndir.
Tərəflər ikitərəfli biznes tərəfdaşlığının əsas istiqamətləri, Azərbaycan və Yaponiya şirkətləri arasında dialoqun gücləndirilməsi, investisiya və vergitutma sahəsində, COP29 çərçivəsində əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

# "AzerGold"un ixrac gəlirləri açıqlanıb

Cari ilin yanvar-fevral aylarında "AzerGold" QSC 4,3 milyon dollar dəyərində məhsul ixrac edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,5 faiz azdır.
Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın mart sayında bildirilib.
Qeyd edək ki, ötən ilin həmin dövründə "AzerGold" QSC-nin ixrac gəlirləri 6,1 milyon dollar olub.




# "SOCAR Polymer"in ixrac gəlirləri 33,7 faiz azalıb

SOCAR POLYMER

Cari ilin yanvar-fevral aylarında "SOCAR Polymer" MMC 34,1 milyon dollar dəyərində məhsul ixrac edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 33,7 faiz azdır. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın mart sayında bildirilib. Qeyd edək ki, ötən ilin həmin dövründə "SOCAR Polymer" MMC-nin ixrac gəlirləri 51,4 milyon dollar olub.

# ARDNF valyuta bazarına $1.8 mlrd. satıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən 2024-cü ilin mart ayı ərzində 498,3 milyon ABŞ dolları məbləğində vəsait satılıb.
Beləliklə, Fond ilin ilk rübündə yerli valyuta bazarının sabitliyinin qorunmasında 1 milyard 835.80 milyon ABŞ dolları satıb. Bu da illik müqayisədə 13 faiz çoxdur.
Mart ayında 6 valyuta hərracı keçirilib və Banker.az-ın hesablamalarına əsasən hərraclarda 498.3 mln. dollar satılıb. Halbuki, bu, öncəki hərraclarda dəyişə bilirdi.




# "Atəşgah Sığorta Şirkəti"nin gəlirləri artıb

"Atəşgah Sığorta" ASC 2023-cü ili 437 min manat xalis mənfəətlə başa vurub.
Banker.az bu barədə şirkətin maliyyə hesabatına istinadən xəbər verir.
Ötən il "Atəşgah Sığorta"nın gəlirləri 38 milyon 360 min manat (illik müqayisədə 29.3% çox), xərcləri 37 milyon 814 min manat (25.3% çox), mənfəət vergisi ödəmələri isə 109 min manat təşkil edib. "Atəşgah Sığorta"nın hesabladığı sığorta haqları 2022-ci ildə 28 milyon 852 min manat ikən, 2023-cü ildə 45 milyon 870 min manata yüksəlib. Şirkətin sığorta ödənişləri isə 15 miylon 908 min manatdan 18 milyon 741 min manata qalxıb.

# Təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların həcmi açıqlanıb

"2023-cü ildə Azərbaycanın təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatlarının həcmi 2,5 milyard dollar olub".
Bu barədə Mərkəzi Bankın Statistika Departamentinin direktoru Samir Nəsirov media brifinqində deyib.
"Daxilolmalar 1,8 milyard dollar, ödənişlər isə 0,7 milyard dollar olub. Təkrar gəlirlər balansında təqribən 93,4 faiz



xaricdən fiziki şəxslərin pul köçürmələrinin, 5,7 faiz ölkəyə gətirilən humanitar malların, 0,9 faiz isə digər daxilolmaların payına düşüb", - o deyib.
Qeyd olunub ki, Azərbaycanda pul köçürmələri ötən ilin analoji dövrü ilə müqayisədə 54,3 faiz azalaraq 1,7 milyard dollara düşüb.
Hesabat dövrüdə Azərbaycandan pul köçürmələri 17,2 faiz azalaraq 0,6 milyard dollara düşüb.
Qeyd edək ki, bütünlükdə təkrar gəlirlər üzrə əməliyyatların saldosu müsbət qalaraq 1,1 milyard dollar olub.

# Azərbaycan Sankt-Peterburq ilə gəmiqayırma sahəsində birgə istehsala başlaya bilər

"Azərbaycan ilə Sankt-Peterburq şəhəri gəmiqayırma sahəsində əməkdaşlıq edərək birgə istehsal prosesinə başlaya bilərlər". Bu sözləri Rusiyanın Azərbaycandakı ticarət nümayəndəsi Ruslan Mirsayapov Bakıda "Sankt-Peterburq və Azərbaycan: Əməkdaşlıq üfüqlərinin genişləndirilməsi" mövzusunda keçirilən biznes



forumdakı çıxışında deyib.
O bildirib ki, gəmiqayırma sahəsində əməkdaşlıq haqqında Rusiya ilə Azərbaycan arasında ötən il saziş imzalanıb.
***"Bakıda və Sankt-Peterburq şəhərlərində gəmiqayırma zavodları var ki, bunlarında birgə istehsalı nəticəsində müxtəlif təyinatlı gəmilər istehsal etmək olar. Artıq hər iki ölkənin mütəxəssisləri qarşılıqlı faydalı əməkdaşlıq barəsində müzakirələr aparırlar"***, - deyə Ruslan Mirsayapov vurğulayıb.

# "AzerGold" QSC və "Regional İnkişaf" İctimai Birliyi ekoloji aksiya keçirib

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə "Çovdar" qızıl yatağının yaxınlığında növbəti ağacəkmə aksiyası keçirilib.
"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Təbiətə qayğı missiyamızdır" şüarı ilə bölgənin yaşıllıq sahələrinin artırılması, ekoloji tarazlığın qorunmasına töhfə verilməsi məqsədilə təşkil edilən aksiyada "AzerGold" QSC-nin əməkdaşları, RİİB nümayəndələri və könüllüləri iştirak ediblər.
Aksiya zamanı 1 hektar ərazidə yerli şəraitə uyğun 1000 ədəd cökə ağacı əkilərək, aqrotexniki qaydada qulluq göstərilib. Həmçinin tədbir çərçivəsində ərazidə müvafiq abadlıq işləri aparılıb.



Xatırladaq ki, ölkəmizdə qeyri-neft-qaz sektorunun önəmli sahələrindən olan dağ-mədən sənayesinin inkişafı istiqamətində fəaliyyətini uğurla davam etdirən "AzerGold" QSC ətraf mühitin mühafizəsinə ardıcıl və sistemli töhfələrini verir. Bugünədək QSC Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyi, İDEA İctimai Birliyi, eləcə də digər hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq şəraitində Daşkəsən rayonunda 16 mindən çox ağac və kol bitkisinin əkinini həyata keçirib. Həmçinin nadir və nəsli kəsilməkdə olan bitki növlərinin, eyni zamanda biomüxtəlifiyin qorunması məqsədilə çoxsaylı layihələr, göl və çay kənarlarında təmizlik aksiyaları icra edilib.

# İxracda elektrik enerjisi 1-ci, pambıq 2-ci, pomidor 3-cü olub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın mart sayına əsasən, 2024-cü ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ümumi ixracı 4,8 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 455 milyon ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-fevral ayları ərzində yeyinti məhsulları üzrə ixrac 137,1 milyon ABŞ dollarına bərabər olub.
2024-cü ilin ilk 2 ayı ərzində qara metalların ixracı 46,4%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 29,7%, pambıq ixracı 29,3%, meyvə-tərəvəz ixracı isə 24,6% artıb.
2024-cü ilin yanvar-fevral ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9% artaraq 145,9 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər 36,6 milyon ABŞ dolları təşkil edib.
Həmin dövrdə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (34,9 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (33,5 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (30 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.
2024-cü ilin yanvar-fevral ayları ərzində Rusiya Federasiyasına 154,4 milyon ABŞ dolları, Türkiyəyə 97,3 milyon ABŞ dolları, Gürcüstana 42,9 milyon ABŞ dolları, Ukraynaya 18,2 milyon ABŞ dolları, Qırğızıstana isə 18,2 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.
2024-cü ilin fevral ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (23 milyon ABŞ dolları) birinci, pomidor (tomat) (13,4 milyon ABŞ dolları) ikinci və ilkin formalı propilen sopolimerləri (13,2 milyon ABŞ dolları) üçüncü olub.



# TuranBank mikrokreditləşmədə rəqabətliliyin artımına ən çox töhfə verən bankdır

Martın 29-da Qubada Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə keçirilən III Aqrobiznesin İnkişafı Forumunda TuranBank mükafata layiq görülüb.
Belə ki, ölkəmizdə sahibkarlığın, xüsusilə də kənd təsərrüfatının inkişafına və maliyyələşməsinə daima dəstək olan, özəl sektorun inkişafına öz töhfəsini verən TuranBank "2023-cü ildə mikrokreditləşmədə rəqabətliliyin artımına ən çox töhfə verən bank" nominasiyasında mükafat qazanıb.



4-10 aprel 2024-cü il

# YENİ MİLLİ HƏDƏFLƏRƏ DOĞRU

Azərbaycan vətəndaşlarının min bir əziyyətlə qurduqları evlərin dağıdılması, dövlətimizin illər boyu yaratdığı sosial-iqtisadi infrastrukturun məhvi, tarixi binalarımızın, mədəniyyət müəssisələrimizin, məscidlərimizin və digər müqəddəs məkanlarımızın dağıdılaraq Yer üzündən silinməsi, ətraf mühitə qarşı ekoloji cinayətlər bunun ayrı-ayrı təzahürləridir. Azərbaycan həm də bu cinayətlərin fəsadlarını aradan qaldırır, onların vurduğu yaraları sağaldır. Əlbəttə ki, bu sırada erməni vandallığının dünyaya çatdırılması da diqqət mərkəzində saxlanılır.

**Hər bir uğur iqtisadi inkişafla üzvi vəhdətdədir**

Əlbəttə ki, bütün uğurlarımızın təməlində dayanan əsas amil iqtisadi inkişafdır. Ordumuzun döyüş qabiliyyətinin artırılması, Qarabağ və Şərqi Zəngəzurun sürətli bərpası ilk növbədə iqtisadi inkişafla üzvi vəhdətdədir. Ötən 20 ildə Azərbaycanın uğurları sırasında iqtisadi inkişafın xüsusi yeri var. İqtisadiyyatın inkişafı dövlətimizin qarşısında dayanan əsas taleyüklü vəzifələrin vaxtında icra edilməsində böyük rol oynadı.

Andiçmə mərasimində iqtisadi məsələlərə də diqqət yetirilməklə, iqtisadiyyatın daha da inkişafının qarşıdakı dövrdə prioritet vəzifə olacağı bəyan edildi. Bunu təmin etmək üçün isə Azərbaycanın kifayət qədər təcrübəsi və ötən 20 ildə yaratdığı böyük potensialı var. İlham Əliyev çıxışında ötən 20 ilin göstəriciləri əsasında Azərbaycanın dayanıqlı iqtisadi inkişafı barədə aydın təsəvvür yaratdı: ***"Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində, görün, öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır".***

Xarici borcumuzun 6,4 milyard dollar, yaxud ümumi daxili məhsulumuzun cəmi 9 faiz təşkil etməsi mühüm siyasi hadisədir və aparılan siyasətin böyük uğurudur. Pandemiyanın və qlobal maliyyə-iqtisadi böhranını yaratdığı çətinliklər isə artıq geridə qalır və Azərbaycan iqtisadiyyatı ildən-ilə artım nümayiş etdirir.

Bu dövrdə sənaye məhsulu istehsalı 2,7 dəfə, o cümlədən qeyri-neft-qaz sənayesi üzrə 3,8 dəfə artıb. Sürətli inkişaf dövlət büdcəsinin gəlirlərinin də artmasını təmin edib, büdcə gəlirləri 25,1 dəfə, xərcləri 26 dəfə artmışdır. Həmçinin xarici ticarət dövriyyəsinin həcmində 10,8 dəfə, qeyri-neft-qaz məhsullarının ixracında isə 8,2 dəfə artım qeydə alınıb. Bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 185-dək və ya 49,2 faiz artıb.

Təkcə 2024-cü ilin yanvarının statistik göstəriciləri iqtisadi artımın davamlı və sürətli olmasından xəbər verir. Belə ki, bu ilin yanvar ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulda 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artım qeydə alınıb. Bu ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik.

Aparılan çoxşaxəli islahatlar Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaradıb. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Təbii ki, Azərbaycan iqtisadiyyatının inkişafına, misilsiz uğurlarına dair bu kimi faktların sayını artıra, çoxsaylı uğurları sadalaya bilərik. Lakin hesab edirik ki, qeyd olunan göstəricilər belə ötən 20 ildə Azərbaycanın inkişaf yolunun nəhəngliyinə işıq tutur, Azərbaycanın bəzi dövlətlərin onilliklərlə əldə edə bilmədiyi nailiyyətlərə dövlətçilik baxımından çox qısa bir dövr ərzində imza atdığını təsdiq edir. İqtisadi inkişafın respublikamıza gətirdiyi ən böyük dividendlərdən biri iqtisadi təhlükəsizliymizin möhkəmləndirilməsidir. Aydın məsələdir ki, yalnız güclü iqtisadiyyata malik, iqtisadi cəhətdən müstəqil olan dövlətlər digər sahələrdə də müstəqil siyasət həyata keçirə bilərlər. Bu gün Azərbaycanın dünyada öz siyasətini inamla həyata keçirməsi, milli mənafe və maraqların qorunması istiqamətində dönməz qətiyyət nümayiş etdirməsi ölkəmizin güclü iqtisadi dayaqlara malik olması ilə əlaqədardır. Güclü iqtisadi dayaqlar siyasi müstəqilliyə də təkan verir. Dünyada cərəyan edən mürəkkəb proseslərin yaratdığı narahatlıqlara baxmayaraq, Azərbaycan uğurlu və dayanıqlı inkişafını təmin etmişdir. Əlbəttə ki, digər amillərlə yanaşı, iqtisadi təhlükəsizliyimizin təmin edilməsi qarşıdakı dövrə daha nikbin baxmağa əsas verir. Bir sözlə, iqtisadiyyatdakı dinamika və iqtisadi təhlükəsizlik sabaha daha böyük inamla addımlamağa əsas verir.

Eyni zamanda İlham Əliyev 2003-cü ildən bu hədəfi qarşıya qoyub: iqtisadi tərəqqi yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır. Çünki iqtisadi inkişaf o zaman öz məqsədinə çatır ki, sosial inkişafa da töhfə verir. 20 ilin müqayisəsinə nəzər salsaq, bu sahədə də pozitiv dəyişiklikləri görə bilərik. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, sosial sahədə görülmüş işlər də göz qabağındadır: ***"2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək".***

Dövlət başçısının uğurlu sosial siyasətinin nəticəsi olaraq 2003-2023-cü illərdə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artıb ki, bu rəqəm nəinki keçmiş postsovet məkanında, eləcə də dünyanın qabaqcıl dövlətləri ilə müqayisədə də ən yüksək göstəricilərdən biridir. Bu dövrdə əhalinin nominal gəlirləri 12 dəfə, orta aylıq əməkhaqqı 10,8 dəfə, pensiyaların orta aylıq məbləği 15,6 dəfə artıb. O cümlədən işsizliyin səviyyəsi 5,6 faizə, yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizədək enmişdir.

Eyni zamanda nəzərə almalıyıq ki, 20 ildə Azərbaycanda böyük demoqrafik dəyişiklik baş verib, yəni əhalinin sayı əhəmiyyətli dərəcədə artıb. Çünki bu artım ilk növbədə sosial siyasət qarşısında yeni vəzifələr qoyur.

Azərbaycanda iqtisadi sahədəki uğurlar o qədər dərin və əhatəlidir ki, onların hamısını ifadə etmək çətindir. Cənab Prezidentin yeni mərhələdə iqtisadi məsələlərlə məşğul olan qurumlara mesajları da olduqca sanballı idi. Həmin qurumlar öz fəaliyyətlərini dövrün yeni tələblərinə uyğunlaşdırmalı, yeni baxışları, yeni yanaşmaları əsas götürməlidirlər. Xüsusilə nəzərə almalıdırlar ki, qloballaşma liberallaşma nəzəriyyəsinin bu gün gündəmdə olmamasını ön plana çıxarıb. Liberalizmi fetişləşdirməməliyik, liberalizmin mənfi cəhətlərini daha çox üzə çıxarmalıyıq. Çünki liberalizm bizə bəzi hallarla ziyandan başqa heçnə vermədi.

Azərbaycanda iqtisadi sferada güclü qanunvericilik bazası yaradılıb. Bu baza gələcəkdə daha da təkmilləşdirilməlidir və bu, öz növbəsində milli iqtisadiyyatımızın strukturunun daha da inkişafına xidmət etməlidir. Azərbaycanın yürütdüyü siyasətin ən uğurlu nəticələrindən biri ondan ibarətdir ki, dövlətin iqtisadiyyatda iştirakının səmərəli mexanizmləri formalaşıb. 2022-ci ildə "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunun qəbulu da bunun hüquqi tərəfidir. "Dövlət iqtisadiyyatdan getməlidir" çağırışını edənlər təəssüf ki, xalq qarşısında məsuliyyətlərini dərk etmirlər.



**Xarici siyasətdə türk birliyinin gücləndirilməsi prioritet olacaq**

Prezident İlham Əliyev çıxışında Azərbaycanın xarici siyasəti ilə bağlı vacib məqamlara toxunaraq, prioritet istiqamətləri elan etdi. Bu xüsusda çıxışda yer alan fikirlərdən bir daha bəlli oldu ki, dövlətimizin başçısının hər zaman olduğu kimi, regionda və dünyada cərəyan edən geosiyasi proseslərinin inkişafı ilə bağlı tamamilə aydın, dəmir məntiqə söykənən qənaətləri var və o, Azərbaycanın təhlükəsizliyini, sabit inkişafını təmin edə biləcək perspektiv istiqamətləri, milli hədəflərə varmaq üçün seçilən yolda bizi xalq və dövlət olaraq gözləyən çağırışların spektrini ən incə detallarına kimi müəyyənləşdirib. Bu baxımdan İlham Əliyevin nitqində diqqət çəkmək istədiyim məqamlardan biri dövlətimizin başçısının Türk dünyasının gələcəyi və ölkəmizin bu tarixi prosesdəki missiyası ilə bağlı səsləndirdiyi fikirlərdir.

Vətən müharibəsindən keçən 3 il göstərdi ki, dünyada güc mərkəzi sayılan heç bir dövlət və heç bir beynəlxalq təşkilat təmənnasız olaraq və beynəlxalq hüquqa əsaslanaraq Azərbaycanın haqlı mövqeyini müdafiə etmək fikrində və əzmində deyil. Ona görə biz öz haqqımızı öz gücümüzlə aldıq. Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə gələcək inteqrasiyası da məhz bu rakursdan dəyərləndirilməli və yeni dövrdə siyasi gələcəyimizlə bağlı doğru və hərtərəfli ölçülüb biçilmiş addımlar atılmalıdır. Bu addımların sayı çoxdur, amma onların içərisində xalqımız üçün taleyüklü sayıla biləcək biri var. Bu, müstəqil türk dövlətləri arasında inteqrasiya proseslərini sürətləndirməklə türk dövlətlərinin birliyini daha gücləndirməkdir. Biz bugünkü ədalətsiz dünyanın qarşısına tək-tək deyil, bütün qardaş türk dövlətləri ilə birlikdə, əbədi müttəfiqlər kimi çıxmalıyıq. Prezident İlham Əliyev də türk xalqlarını bir ailə kimi dəyərləndirdi. Bu, doğrudan da, belədir. Tarixən də belə olub və bu gün də belədir. Vətən müharibəsi zamanı bütün türk xalqlarının bizimlə həmrəylik nümayiş etdirməsi, bütün türk xalqlarının bizim Zəfərimizlə öyünməsi aramızdakı qırılmaz mənəvi bağlılığın həmişəyaşar olmasının göstəricisi idi. Vətən müharibəsi dövründə türk dövlətlərinin demək olar hamısı Azərbaycana birmənalı dəstəklərini ifadə etdilər.

Türk Dövlətləri Təşkilatı birliyin və gücün rəmzidir, qlobal dünyada aktora və güc mərkəzinə çevrilməlidir. Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin zəngin təbii ehtiyatları, insan resursları, Avrasiyada ən önəmli, qlobal geostrateji əhəmiyyət daşıyan bir ərazidə yerləşmələri TDT-nin beynəlxalq münasibətlər sisteminin ən güclü aktorlardan birinə çevrilməsinə imkan verir. Bu prosesin sürətlə irəliyə doğru aparılması üçün isə gərəkli olan möhkəm, tarixin dərin qatlarında kök salan təməl, milli iradə və bu iradəni gerçəkləşdirə biləcək potensial var. Andiçmə mərasimində Milli Məclisin tribunasından ifadə edilən bu mövqe illərlə yad dəyərlərlə bizi çaşdırmaq, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışdıqları saxta proseslərin yerlə-yeksan edilməsi idi.

Beləliklə, yeni dövrün memarı olaraq İlham Əliyev beynəlxalq fəaliyyətdə prioritet olaraq Türk dünyası ilə əlaqələri müəyyən edir. Müzəffər Ali Baş Komandanın təbirincə desək, "böyük coğrafiya, böyük ərazi, böyük hərbi güc, böyük iqtisadiyyat, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali" kimi vacib elementləri birləşdirən Türk Dövlətləri Təşkilatı həm də bir soydan, eyni kökdən xalqlar olması baxımından Azərbaycan üçün ailədir.

Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Sirr deyil ki, əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da, məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edə bilib. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, əks halda ***"155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi".***

Azərbaycan haqq işimizə daim dəstək verən İslam Əməkdaşlıq Təşkilatı, hazırda inkişafında ölkəmizin müstəsna rol oynadığı Qoşulmama Hərəkatı kimi təşkilatlar formatında, COP29 kimi möhtəşəm tədbirə evsahibliyi ilə, kommunikasiya imkanları ilə qlobal proseslərə təsir imkanlarını daha da gücləndirəcək, dünyada dayanıqlı inkişafa, iqlim dəyişikliyinin qarşısının alınmasına, neokolonializm, dini, irqi ayrı-seçkilik kimi təzahürlərə qarşı mübarizəyə - bir sözlə, insanın xoşbəxtliyi və rifahına töhfələrini verəcək.

Bu gün Azərbaycanın xarici siyasət hədəfləri Zəfər qazanmış, reallıqlar yaratmış lider dövlətin haqlı mövqeyi üzərində bərqərar olunub və biz Ermənistanın timsalında hansısa üçüncü dünya dövləti ilə münasibətlərə vaxt ayırmaq yox, lider qlobal subyektlərdən biri kimi iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizədə dünyanı narahat edən problemlərin həllində daha fəal olmağı planlaşdırırıq.

Ermənistanla münasibətlərə gəlincə, Azərbaycan Ermənistana düşmənçilik səhifəsini bağlayıb normal qonşuluq münasibətlərinin yaradılmasını təklif edir. Lakin son hadisələr onu göstərir ki, reallıqlarla barışmaq istəməyən Ermənistan ona uzadılmış əməkdaşlıq və barış əlini sıxmağa tələsmir, marionet ölkə olaraq kənar qüvvələrin diktəsi ilə sülh gündəmini pozmağa çalışır.Lakin yeni dövr üçün İlham Əliyevin bu istiqamətdə yol xəritəsi kifayət qədər aydındır: Azərbaycan bu məsələdə qlobal manipulyatorlara meydan verməyəcək.

Digər tərəfdən, Ermənistanın havadarlarının hikkəli və ikrah doğuran sərsəmləmələrinin fonunda hansısa normallaşmadan danışmaq mümkün deyil. Normallaşmaya isə ilk növbədə, Ermənistanın, eləcə də hələ də sağlam məntiqlə düşünməyi bacarmayan, saxta, əsassız iddialara söykənən ideoloji zəhərlə taqətdən düşmüş ultramillətçi erməniliyin ehtiyacı var. Ermənistan və onun müxtəlif qütblərdən "burunlarını" Cənubi Qafqaza uzadan təhrikçiləri normallaşmalıdır. Onlar sağlam düşünməyi, reallığı dərk etməyi bacarmalı, həqiqəti qəbul etməlidirlər. Əks təqdirdə, bizim heç bir normallaşmaya ehtiyacımız yoxdur. Azərbaycan isə ərazi bütövlüyü məsələsində öz məqsədlərinə nail olub. Andiçmə mərasimində çıxışında bir daha bu mövzuya qayıdan Prezident İlham Əliyev İrəvana və onun havadarlarına sərt və aydın mesajlar göndərdi: ***"Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun".***

Əlbəttə, bunun da kökündə İlham Əliyevin Heydər Əliyev siyasi kursuna arxalanaraq nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır. Dövlətimizin başçısının andiçmə mərasimində hər bir Azərbaycan vətəndaşının qəlbini qürurlandıran formada qətiyyətlə dediyi kimi, ***"Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!"*** Bu isə Bakıya özünün xarici siyasət kursunu daha rahat formada korreksiya etmək və yeni dövrün tələbinə uyğunlaşdırmaq imkanı verir.

Azərbaycan artıq əvvəlki qaydalarla – ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Başqa cür ifadə etsək, Azərbaycan artıq maskası yırtılmış beynəlxalq hüquq subyektlərinin riyakarlığına və ayırıcı xətlərdə ehtiva olunan selektiv siyasətinə dözmək niyyətində deyil.

**Xalqımız bundan sonra da böyük uğurlara imza atacaq**

Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük Zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz gücə sahib Azərbaycan xalqı, qətiyyətli Liderin mətin iradəsi, bu günə və gələcəyə aydın baxışı, müdrikliyi sayəsində tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycan dövləti var. Bütün bunlar xalqımızın layiq olduğu qalibiyyət, qüdrətlilik duyğusunu gücləndirir, bizi yeni dövrün milli hədəflərinə doğru aparır.

Andiçmə mərasimində Azərbaycanın artıq daxil olduğu yeni strateji dövrün ümumi mənzərəsi canlandırıldı, əsas hədəflər diqqətə çatdırıldı. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, eyni zamanda əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş halda, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə - alnıaçıq, üzüağ daxil olur. Davamlı inkişaf, ardıcıl nailiyyətlər, önümüzdəki böyük hədəflərə çatmaq üçün qarşımızda keçilməsi qeyri-mümkün maneələr yoxdur.

Bu baxımdan adı tariximizin qızıl səhifəsinə "qalib xalqın qalib lideri" kimi yazılan İlham Əliyevin andiçmə mərasimindəki nitqi çox mühüm mesajlarla yadda qaldı. Ən əsası prezident Azərbaycanın müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş ilk inaqurasiya mərasimini yeni dövrə keçidi təmin edəcək mükəmməl siyasi hadisəyə çevirdi. Əminliklə söyləmək olar ki, cənab prezidentin siyasi məharəti və səriştəsi, yaradıcı təfəkkürü və yenilməz əzmi dövlətimizin inkişafı naminə qarşıya qoyulan bütün hədəfləri əldə etməyə imkan yaradacaqdır.

Xalqımız bundan sonra da öz Liderinin ətrafında bir yumruq kimi sıx birləşərək daha böyük uğurlara imza atacaq. Buna heç kimin şübhəsi ola bilməz. Artıq xalqımızın və dövlətimizin həyatında yeni, parlaq bir dövr başlayıb. Bizi qarşıda fəth ediləcək yeni zirvələr və böyük zəfərlər gözləyir. Yeni dövrdə milli maraqlara əsaslanan və güclü ideoloji təməli olan dövlət siyasətimiz ardıcıl və qətiyyətli şəkildə davam etdiriləcək. Yeni dövrdə də Azərbaycanın müstəqil, güclü dövlətçiliyi daim möhkəmlənəcək və inkişaf edəcək.

**akademik**
**Ziyad SƏMƏDZADƏ**

# РЕСПУБЛИКА БЕЛАРУСЬ: ПРОЕКТЫ БУДУЩЕГО



*(начало в предыдущем номере)*

**БЕЛАРУСЬ В КЛУБЕ КОСМИЧЕСКИХ ДЕРЖАВ**

Очевидно, что без развития отечественной космической отрасли невозможно дальнейшее полноценное развитие национальной экономики.

В 2013 году Республика Беларусь стала полноправным членом Комитета ООН по использованию космического пространства в мирных целях. Мы создали новую отрасль экономики – космическую. Белорусы гордятся этими успехами, но главное – видят перспективы.

В космической отрасли страны задействовано более 20 научных и производственных организаций, в которых работает около 4 тыс. человек. На орбите – четыре белорусских спутника. И это не предел. Несмотря на относительную молодость (первый спутник был запущен 22 июля 2012 года), космическая отрасль Беларуси уже внесла значимый вклад в экономику страны. Практически во всех отраслях экономики востребована космическая информация, получаемая в системе дистанционного зондирования Земли. Спутниковая информация используется, чтобы прогнозировать погоду, состояние лесов, пожароопасные ситуации, изучать климатические изменения, прогнозировать урожайность культур, проводить мониторинг земельного фонда, и др. В таких областях, как связь, государственное управление, торговля, транспорт, навигационное обеспечение, энергетика, окружающая среда, путешествия и развлечения и др. широкое распространение получили товары и услуги, базирующиеся на результатах космической деятельности. Экономический эффект использования космической информации высок: превышение доходов над расходами на эксплуатацию спутника составило около 44 млн долларов США (по состоянию на начало 2024 года).

Успешная космическая деятельность становится сегодня необходимым условием сохранения национального суверенитета как в военно-политическом аспекте, так и в сфере информационной безопасности. Не зря говорят, что лидерство на Земле сегодня решается в космосе. Защита целостности и неприкосновенности территории Республики Беларусь в XXI веке не представляется возможным без использования космических средств и технологий.

Многое сделано, но решение важнейших социально-экономических задач требует ускоренного развития данного направления.

В настоящее время белорусскими и российскими специалистами совместно создается группировка новых спутников с высоким пространственным разрешением – 0,35 м (запуск первого спутника планируется в 2028 году). Они соответствуют лучшим мировым аналогам.

Знаковый проект – подготовка и полет на российский сегмент Международной космической станции белорусского космонавта.

В покорении космоса и ранее принимали участие уроженцы Беларуси: Петр Ильич Климук (совершил три космических полета: в 1973, 1975, 1978 гг.), Владимир Васильевич Коваленок (совершил три космических полета: в 1977, 1978 и 1981 гг.), Олег Викторович Новицкий (совершил три космических полета: в 2012, 2016, 2021 гг.).

Принципиально важно, чтобы впервые в истории суверенного белорусского государства на орбитальной станции побывал гражданин Республики Беларусь.

В 2023 году в Центре подготовки космонавта им. Ю.А.Гагарина из 6 кандидатов из Беларуси для полета были выбраны 2 человека (участник космического полета и его дублер). Они в настоящее время завершают подготовку к космическому полету на космодроме Байконур (Республика Казахстан). В основной экипаж 21-й экспедиции посещения МКС вошли российский космонавт Олег Новицкий, белоруска Марина Витальевна Василевская (бортпроводник-инструктор авиакомпании «Белавиа») и астронавт NASA Трейси Дайсон.

Старт космического корабля с белорусским космонавтом на борту запланирован на 21 марта 2024 г. В рамках 21-й экспедиции планируется проведение ряда научных экспериментов белорусским космонавтом в области медицины, биологии, физиологии и дистанционного зондирования Земли. Таким образом, наша страна уверенно закрепляет за собой статус современной космической державы.

**АНТАРКТИДА: НА РАВНЫХ С КРУПНЕЙШИМИ ДЕРЖАВАМИ**

Большинство развитых государств имеет свои интересы в этом регионе, богатом минеральными и биологическими ресурсами, нефтью, газом. Льды этого континента составляют около 90% всех водных запасов мира.

При поддержке Главы государства А.Г.Лукашенко независимая Беларусь в 2006 году начала свой путь в освоении ледового континента, когда присоединилась к Договору об Антарктике.

Собственные станции здесь имеют далеко не все участники Договора об Антарктике. Белорусская станция «Гора Вечерняя» (расположена в Восточной Антарктиде) в 2020 году была признана международной инспекцией одной из лучших.

Интерес белорусской стороны к исследованию Антарктиды обусловлен тем, что наше присутствие на этом материке позволяет:

***– осуществлять мониторинг биоразнообразия наземных и водных экосистем Антарктиды, в том числе с использованием генетических методов;***

***– проводить мониторинг озоносферы этого материка (осуществляется белорусскими физиками при помощи разработанных уникальных технологий и приборов) и экологический мониторинг Антарктики;***

***Результаты исследований в полярных регионах важны с фундаментальной и практической точек зрения. Геофизические процессы, происходящие в Антарктиде, определяют климат планеты и сохранение биоразнообразия. Это является причиной активной деятельности стран-технологических лидеров в данном регионе.***

Но самое главное – наше присутствие в Антарктиде закрепляет статус Республики Беларусь на международной арене как государства науки и высоких технологий.

* * * *

Успехи белорусских ученых не ограничиваются названными направлениями. К числу передовых достижений можно отнести следующие.

В области информатизации и искусственного интеллекта:

«Платформу искусственного интеллекта BELAI.BY» – веб-приложение для специалистов в сфере искусственного интеллекта (далее – ИИ) и всех заинтересованных в технологиях ИИ;

программный комплекс для первичной диагностики заболеваний легких в условиях массового обследования населения (цифровой рентген), а также для автоматизации процессов обнаружения новообразований в легких на основе компьютерно-томографических изображений;

беспилотные летательные аппараты «Бусел МКР» и «Гексакоптер-1», оснащенные новейшим аппаратно-программным комплексом отечественной разработки, сочетающим в себе технологии искусственного интеллекта.

С помощью ИИ уже сейчас решается множество проблем в различных областях деятельности человека от разработки сложных систем и проведения медицинской диагностики, бизнес-анализа и специальных приложений до обеспечения кибербезопасности и реализации творческого потенциала. Перспективы его применения безграничны.

**В сфере электротранспорта:**

***- малогабаритный двухместный грузопассажирский электромобиль малого класса ACADEMIC ELECTRO; спортивный электромобиль Electro Roadster;***

***- коммерческий грузовой электромобиль МАЗ 4381ЕЕ грузоподъемностью 12 т; малый грузовой автомобиль, грузоподъемностью 1,5 т (находится на испытаниях для дальнейшего производства);***

***- разработаны и изготовлены экспериментальные образцы мехатронного модуля, тяговой аккумуляторной батареи системы верхнего уровня управления электрической силовой установкой легкового электромобиля, в том числе содержащие уникальные конструкторские, схемотехнические и программно-алгоритмические решения;***

***- разработан комплекс конструкторских, схемотехнических и программно-алгоритмических решений и изготовлен экспериментальный образец тяговой аккумуляторной батареи легкового электромобиля БЕЛДЖИ eX50, проведены испытания.***

**В области микроэлектроники и приборостроения:**

***- республиканская система автоматизированного мониторинга окружающей среды;***

***- система для фиксации присутствия субъектов на контролируемой территории, основанная на нейросетевых методах распознавания лиц;***

***- многофункциональный тренажерный комплекс для подготовки спасателей-пожарных действиям по ликвидации чрезвычайных ситуаций с участием электромобилей используется для повышения уровня подготовки обучающихся и работников органов и подразделений по чрезвычайным ситуациям;***

***- автоматизированная система непрерывного мониторинга технического состояния несущих конструкций высотных зданий и большепролетных сооружений;***

***- комплекс приборов оптоакустического контроля материалов и конструкций (в том числе и сварных), определяющий дефекты размером в несколько микрон.***

* * * *

Многовековая история Беларуси свидетельствует: трудности никогда не останавливали белорусов. Наоборот, мотивировали, помогали решать самые амбициозные задачи.

Республика Беларусь располагает серьезными точками роста, которые будут определять лицо страны в ближайшие десятилетия. Достижения в космической, атомной, биотехнологической отраслях привносят в народное хозяйство синергетический эффект, служат драйвером для смежных отраслей, создания новых производств, подготовки кадров по новейшим специальностям.

Данные направления деятельности становятся мерилом успешности страны, символом высокой мечты. Народу, у которого есть высокая мечта, не страшны «майданы».

Президент Беларуси подчеркнул 20 октября 2023 г. на совещании по вопросу совершенствования системы планирования и контроля за реализацией стратегических проектов: **«Это будущее не только любой системы, но и любой страны в целом. Стратегические проекты, если говорить о Беларуси, это будущее нашей страны… Без будущего не может существовать ни один человек, ни одна система, ни одно государство».**

# Исполняется восемь лет с апрельских побед азербайджанской армии



В ночь с 1 на 2 апреля 2016 года и в течение дня азербайджанские позиции и населенные пункты по всей линии фронта подвергались мощному артиллерийскому обстрелу со стороны ВС Армении. В результате бомбардировки населенных пунктов Азербайджана, расположенных вблизи линии соприкосновения войск, погибли 6 мирных жителей, 26 человек получили тяжелые ранения. Были разрушены 232 частных жилых дома, 99 электрических опор, три электростанции, километры водяных и газовых труб. ВС Армении нанесли ракетные удары по социальным объектам, включая школы, больницы, а также местам поклонения.

В целях пресечения армянской провокации, обеспечения безопасности гражданского населения командование ВС Азербайджана приняло решение о проведении неотложных ответных мер в направлениях Агдере-Тертер-Агдам и Ходжавенд-Физули.

В ходе четырехдневных боев соединения ВС Азербайджана освободили высоты вокруг села Талыш, откуда могла исходить угроза для Геранбойского района и города Нафталан, а также населенный пункт Сейсулан, взяли под контроль стратегически важную высоту Лелетепе в направлении Физулинского района. В боях были уничтожены 30 армянских танков, до 15 артиллерийских установок и инженерных укреплений, убито 320 и ранено более 500 военнослужащих противника.

По итогам боев азербайджанские ВС освободили от армянской оккупации более 2000 гектаров территории и еще больше территории перешло под контроль Азербайджана в оперативном плане.

В целом итоги апрельских боев продемонстрировали вниманию Президента Азербайджана, Верховного главнокомандующего Ильхама Алиева к армии, высокую боеспособность ВС Азербайджана, их способность в любой момент освободить оккупированные территории.

Апрельские бои сыграли ключевую роль на пути к победе Азербайджана в 44-дневной войне, начавшейся 27 сентября 2020 года.

Современная боевая тактика и важные новшества, примененные в Отечественной войне Азербайджана славной армией страны, которая всего за 44 дня, одержав победу, обеспечила восстановление территориальной целостности Азербайджана, изучаются передовыми армиями мира.

# Создан техкомитет в сфере электроэнергетики и ВИЭ



В Азербайджане создан технический комитет в сфере электроэнергетики и возобновляемых источников энергии (ВИЭ).

Данный технический комитет создан Азербайджанским институтом стандартизации, который подчиняется Государственной службе по антимонопольному контролю и надзору над потребительским рынком.

Техкомитету присвоен индекс «AZSTAND/TK 46» по стандартизации «Электрическая и возобновляемая энергия», утверждены его устав и структура.

«Целью Технического комитета является обеспечение участия заинтересованных сторон в создании нормативной документационной базы в таких областях, как формирование конкурентной среды на рынке электроэнергии, обеспечение эффективной деятельности субъектов электроэнергетики, стимулирование использования ВИЭ в производстве электроэнергии, эффективном использовании энергоресурсов и обеспечении энергоэффективности», — уточнено в пресс-релизе министерства энергетики.

# İnnovasiyalı biznesə dəyərli töhfə

***Yeni əsrdə milli iqtisadiyyatların dinamik və dayanıqlı inkişafında innovasiya amili həlledici rol oynamaqdadır. İqtisadi inkişafın lokomotivi sayılan iş adamlarının (biznes subyektlərinin) innovasiyalara həssaslığı və onun dəstəklənməsi strateji əhəmiyyətli məsələ hesab edilir. Biznes subyektlərinin rəqabət qabiliyyətliliyinin təmin edilməsində innovasiyaların artan rolu innovasiyalı biznes potensialının kompleks səciyyələndirilməsini tələb edir.***

Kiçik və orta biznes (sahibkarlıq) dayanıqlı iqtisadi inkişafın və sosial tərəqqinin mühüm amili olmaqla, həmin subyektlərin innovasiyalı fəaliyyətinin dəstəklənməsi, çoxsaylı və müxtəlif xarakterli mühit yaradan amillərin tədqiqi obyektiv zərurətə çevrilmişdir. Azərbaycanda xüsusilə müvafiq araşdırmalara ciddi ehtiyac hiss olunur. Bu baxımdan tanınmış alim İlham Əhmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının KOBİA "Elm, təhsil və dəstək" layihələrinin maliyyələşdirilməsi üzrə qrant müsabiqəsi çərçivəsində hazırlanmış "Kiçik və orta biznesdə innovativ fəaliyyət" adlı kitab təqdirəlayiq hadisə hesab edilməlidir.

Əsər giriş, dörd fəsil, nəticə, əlavələr və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İnnovativ kiçik və orta biznes problemlərinə həsr olunmuş kitab qoyulmuş məqsədə nail olmaq baxımından əlverişli struktura malikdir. İlk fəsildə innovasiyaların və innovativ biznesin mahiyyəti açıqlanmış, onun müasir növləri və modelləri ətraflı şərh olunmuşdur. İkinci fəsil innovativ biznesdə (sahibkarlıqda) marketinq və menecmentin aktual problemlərinə həsr olunmuşdur. Burada əsas anlayışlar və yanaşmalarla yanaşı, kiçik biznesdə innovasiyaların menecmenti (idarə edilməsi), innovasiyalı fəaliyyət üçün səmərəli təşkilati formaların seçimi məsələsinə xüsusi diqqət yetirilmişdir. Fəsildə, həmçinin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələri, yanaşmaları, üsulları nəzərdən keçirilir, onlar müqayisəli şərh olunur. İkinci fəslin sonunda innovasiya layihələrinin ekspertizası məsələlərinə xüsusi yer verilmiş, ekspertizanın üsulları, tövsiyə olunan prinsipləri, ekspert qiymətləndirmələri, innovasiyalı fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsinin digər məsələləri araşdırılmış, zəruri ümumiləşdirmələr aparılmışdır.

Kitabın rəqəmsal iqtisadiyyatda innovativ biznesə həsr olunmuş üçüncü fəslində, ilk növbədə rəqəmsallaşmanın intensivləşdiyi hazırki şəraitdə kiçik biznesin perspektivlərinə müəllif münasibəti bildirilmişdir. İxtisaslaşdırılmış innovasiya infrastrukturlarının təşəkkülü və inkişafı məsələlərini tədqiq edən müəlliflər texnoparkların innovasiyalı inkişafda yeri və rolunu qiymətləndirmişlər. Burada kiçik və orta biznesin inkişafında texnoloji transferlər və startapların yaratdığı imkanlar xarakterizə olunmuşdur. İnnovativ biznes üzrə beynəlxalq təcrübəyə, onun yerli şəraitdə tətbiqi imkanlarına həsr olunmuş dördüncü fəsil mühüm nəzəri və təcrübi əhəmiyyətə malikdir.




Tədqiqatın əsaslandırılmış müddəalarının və yekunlarının xülasə edildiyi nəticə hissəsində kiçik və orta biznesdə innovasiyalı fəaliyyətin inkişafı və təkmilləşdirilməsinin istiqamət və vasitələri göstərilmişdir. Təqdim olunan kitabda verilmiş təklif və tövsiyələr onun praktiki əhəmiyyətini artırır. Hesab edirik ki, məhsuldar və tanınmış alim İlham Əhmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının KOBİA "Elm, təhsil və dəstək" layihələrinin maliyyələşdirilməsi üzrə qrant müsabiqəsi çərçivəsində hazırlanmış "Kiçik və orta biznesdə innovativ fəaliyyət" adlı kitab Azərbaycanda biznesin inkişafına layiqli töhfə verəcəkdir.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Rəqəmsal texnologiyalar və tətbiqi informatika kafedrasının professoru, iqtisad elmləri doktoru Rəsul Balayev**

# İnformasiya texnologiyaları və onların təhlükəsizliyinə üstün dövlət baxışı

*(əvvəli ötən sayımızda)*

Əvvəlki bölmədə Azərbaycan Res***publikası Prezidentinin 2023-cü il 28 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyasının ilk dörd fəsli barədə bəhs etmişdim. İndi isə növbəti dörd fəsli barədə xüsusi olaraq bəhs etmək istəyirəm. Strategiyanın 5-ci fəslində məqsədlər izah olunur. Bəzi bəndləri xüsusi ilə vurğulamaq yerinə düşərdi.***

5.1.1. informasiya məkanında, xüsusən də kritik informasiya infrastrukturlarında təhlükəsizlik risklərinin müəyyənləşdirilməsi;

Kritik İnformasiya infrastrukturlarının qorunması ciddi əhəmiyyət kəsb edir. Ona görə ki, bu infrastrukturlara dəyən ziyan vətəndaş həyatına, təhlükəsizliyinə və yaşayış tərzinə təsirsiz ötüşmür. Bununla bağlı olaraq 8-ci bölmədə tədbirlər planında müvafiq dövlət orqanlarının üzərinə məsuliyyət qoyulmuşdur.

5.1.2. informasiya təcavüzünə və həqiqətlərin təhrif edilməsinə, milli dəyərlərin pozulmasına aid təhdidlərə qarşı hazırlığın gücləndirilməsi;

Cəmiyyətdə yaranan və yaranması ehtimal edilən informasiya kirliliyi vətəndaşlarımızı mənfi istiqamətə yönləndirə bilər. Eyni zamanda, bu informasiya milli dəyərlərə qarşı təhdidlərdən qorunmaq üçün profilaktik tədbirləri ehtiva edir. Həqiqətlərin düzgün və lazımi qaydada çatdırılması strategiyanın məqsədlərindən biri hesab olunur.

5.1.3. informasiya məkanında və kritik informasiya infrastrukturlarında informasiya təhlükəsizliyi struktur vahidlərinin, "CERT" şəbəkələrinin və onlar arasında qarşılıqlı fəaliyyətin davamlı təkmilləşdirilməsi;

Ölkəmizdə 3 CERT fəaliyyət göstərir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti – Milli CERT (www.cert.az) ölkə üzrə kibertəhlükəsizliyin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsini təmin edən əlaqələndirici qurum kimi çıxış edir. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (www.cert.gov.az) dövlət qurumlarının kibertəhlükəsizliyinin pozulmasına yönəlmiş hərəkətlərin aşkarlanmasını, qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini, eləcə də onların təhlükəsiz internet şəbəkəsi ilə təmin edilməsini və 24/7 Təhlükəsizlik Əməliyyatları Mərkəzi (SOC) vasitəsilə təhlükəsizliyinin nəzarətdə saxlanılmasını həyata keçirir. Milli Elmlər Akademiyasının Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi "AzScienceCERT"(www.sciencecert.az) elm-kompüter şəbəkəsinin təhlükəsizliyinə məsuldur. CERT-lər və arasındakı qarşılıqlı fəaliyyət, təcrübələrdən istifadə edərək, daha çox təkmilləşmə məqsədlərindən biridir.

5.1.4. informasiya təhlükəsizliyi, həmçinin kibertəhlükəsizlik sənayesinin formalaşdırılması, informasiya mühafizəsi texnologiyaları sahəsində xaricdən birbaşa asılılığın minimallaşdırılması, nəzarətdə saxlanılması, proqram mühəndisliyinin və rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi;

Hər zaman yazı və çıxışlarımda sıxlıqla vurğuladığım məsələnin strategiyada öz əksini tapması mənim üçün xüsusi sevindirici hadisə olmuşdur. Sənayenin formalaşması və birbaşa asılılığın azaldılması ciddi məsələlərdən biri hesab olunur. Əsasən təhlükəsizlik məsələsində istifadə etdiyimiz avadanlıqların və proqram təminatlarının milli və öz istehsalımız olmasına çalışmaq və hər keçən gün asılılığın azaldılması və minimum səviyyəyə çatdırılması da məqsədlərdən biri hesab olunur.

5.1.5. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində innovativ həllərin və startapların təşviqi, onların dəstəklənməsi, yeni məhsul və xidmətlərin yaradılması;

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində startaplara üstünlük verilməsi, eyni zamanda milli sənayenin inkişafına verilən dəstəkdir. Bu sayədə İT şirkətlərinin və bu sahədə fəaliyyət göstərmək istəyənlərin təşviq edilməsi, onlara olan dəstək sayəsində yeni proqram təminatlarının yaradılması və avadanlıqların istehsalı ciddi əhəmiyyət daşımaqdadır.

5.1.10. milli rəqəmsal efir məkanının kibertəhlükəsizliyinin təmin edilməsi;

Efir məkanımızın müxtəlif rəqəmsal müdaxilə və təhlükələrdən qorunması, bunlar üçün profilaktik tədbirlərin görülməsi ciddi əhəmiyyət daşıyır.

5.1.11. kritik informasiya infrastrukturları obyektlərinin təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsi;

Bu sahədə ciddi dövlət nəzarətinin olması çoxdan gözlənilən bir məsələ idi. Artıq kritik informasiya infrastrukturları obyektlərinə nəzarətin həyata keçirilməsinin strategiyanın məqsədi olması çox ciddi bir addımdır.

5.1.14. informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində elmi tədqiqat və layihə-təcrübə işlərinin aparılmasına davamlı təşkilati dəstək verilməsinin təmin olunması;

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsinin təhsil ocaqlarında var olması və möhkəmlənməsi müsbət əhəmiyyətə sahibdir. Universitetlərdə və institutlarda davamlı olaraq, elmi tədqiqat və təcrübə işlərinin aparılması gələcəkdə həm də yüksək kadrların yetişməsinə şərait yaradacaqdır. Qərbdə bu sahənin əsas inkişafı təhsil ocaqlarında baş vermişdir. Strategiyanın bu məsələni məqsəd kimi qeyd etməsi təqdirəlayiq haldır.

5.1.17. təhsil müəssisələri ilə dövlət və özəl sektor arasında informasiya təhlükəsizliyi üzrə kadr hazırlığına dair əməkdaşlığın genişləndirilməsinin təşkili;

Eyni ilə bu məsələ barədə müxtəlif yazılarımızda daha əvvəllər də qeyd etdiyimiz kimi, İT sahəsinin, xüsusi ilə İT təhlükəsizlik sahəsinin inkişafı kadr hazırlığından çox asılıdır. Daimi olaraq, kadrların yetişdirilməsi üçün münbit mühitə ehtiyac var. Hər zaman təklif kimi səsləndirdiyim bir fikrin bu bəndə uyğun gələcəyini düşünərək, bir daha qeyd etmək istəyirəm ki, təhsil ocaqları dövlət və özəl təşkilatlardan təcrübəli kadrları müəllim kimi dəvət etməli, onlar üçün şərait yaratmalıdırlar. Eyni zamanda, dövlət və özəl təşkilatlar da bu sahənin inkişafı üçün, işçilərinin təhsil ocaqlarına gedib müəllim kimi həftədə bir neçə saat dərs keçərək, fəaliyyət göstərmələri üçün şərait yaratmalıdırlar. Belə olduqda təcrübə və elm birlikdə addımlaya biləcək. Təcrübə iş yerlərində toplaşıb qalmayacağı kimi, elm də sadəcə təhsil ocaqlarında passivləşməyəcək. Ünsiyyət və qarşılıqlı münasibətlər yüksək inkişafa və peşəkar kadrların ortaya çıxmasına səbəb olacaq. Əks halda inkişaf çətindir. Strategiyanın bu bəndində göstərilən məqsəd də ali məqsəddir.

**(davamı gələn sayımızda)**



***Bəhruz Əliyev, İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti***

# İKT sektoru gəlir baxımından ən sürətlə artan qeyri-neft sektorudur

***"Azərbaycanda İKT sektoru gəlir baxımından ən sürətlə artan qeyri-neft sektorudur".*** Bu barədə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı rəhbəri Natalya Muravidze "IT Hub Azerbaijan" layihəsinin bağlanış mərasimində deyib.

"Şadam ki, "IT Hub Azerbaijan" məlum problemlərdən birini - bacarıqların artırılması problemini həll etməyə kömək edir. Layihə inklüziv regional iqtisadi inkişafa, texniki tərəqqiyə və qlobal rəqabət qabiliyyətinə töhfə vermək iqtidarındadır. O, həmçinin innovasiyaları təşviq edir, iş yerləri açır və Azərbaycanın rəqəmsal iqtisadiyyatın dinamik aktoru olaraq mövqeyini müəyyənləşdirir. Qürur duyuruq ki, layihə təkcə Azərbaycanın İT sektorunu dəstəkləmir və ölkədə innovasiyaları təşviq edir, lakin həm də kənd yerlərinin, ölkənin bölgələrinin inkişafına imkan yaradaraq bölgələr və şəhərlər arasında rəqəmsal qeyri-bərabərliyi azaldır. Azərbaycanda İKT sektoru gəlir baxımından ən sürətlə artan qeyri-neft sektorudur, istehlakçıların sayı isə sürətlə artır", - o deyib.




Qeyd edək ki, "IT Hub: Azərbaycanın informasiya-kommunikasiya sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi" (IT Hub Azerbaijan) layihəsi İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, "StrategEast" şirkəti və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birgə əməkdaşlığı ilə həyata keçirilir.

Layihənin hədəfi Azərbaycanın bölgələrində İKT sahəsinin inkişafına dəstək, bu sahədə ixtisaslaşmış kadrların əmək məşğulluğu və hazırlığından ibarətdir.

# "Bir Pəncərə" vasitəsilə qeyri-neft ixracı 43 faiz artıb




Cari ilin yanvar-mart ayları ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 59,3 milyon dollar olub.

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın mart sayına istinadla bildirir ki, mart ayında isə ixrac 42,9 faiz artaraq 25 milyon dollar təşkil edib.

# Azərbaycanın qeyri-neft məhsullarını idxal edən ilk "üçlük" həmsərhəd ölkələrdir

Cari ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (154,4 milyon dollar) birinci olub.



AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın mart sayına istinadla bildirir ki, həmin dövrdə Türkiyəyə 97,3 milyon dollar, Gürcüstana 42,9 milyon dollar, Ukraynaya 18,2 milyon dollar, Qırğızıstana isə 18,2 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

# Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah



*Sual-cavabı Bakı Dövlət Universitetinin dosenti, iqtisad elmləri namizədi Mehriban Yadulla aparır.*

***Sual: Səlahiyyətli iqtisadi operator statusu kimlərə verilir?***

**Cavab:** Bununla bağlı Gömrük Məcəlləsinin 5-ci fəslinə müraciət edəcəyik:

Ümumdünya Gömrük Təşkilatının norma və standartlarına uyğun olaraq, səlahiyyətli iqtisadi operator - malların təyinat yerinə çatdırılmasının təhlükəsizliyinin təmin edilməsi və xarici ticarətin asanlaşdırılması məqsədilə gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edən hüquqi şəxsdir.

Gömrük ərazisində təsis olunmuş və bu Məcəllədə müəyyən olunmuş şərtlərə cavab verən hüquqi şəxs səlahiyyətli iqtisadi operator statusunu almaq üçün müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi) müraciət edə bilər. Səlahiyyətli iqtisadi operatorun fəaliyyətini tənzimləyən tələbləri müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) müəyyən edir. Səlahiyyətli iqtisadi operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması qaydalarını müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi) Gömrük Məcəlləsində nəzərdə tutulmuş gömrük prosedurlarının sadələşdirilmiş forma və üsullarından istifadə etmək üçün səlahiyyətli iqtisadi operatora müəyyən hüquqlar verir. Digər ölkələrin gömrük orqanları tərəfindən verilmiş səlahiyyətli iqtisadi operator statusu gömrük nəzarətinə xələl gətirməmək şərti ilə beynəlxalq müqavilə əsasında tanına bilər. Səlahiyyətli iqtisadi operator statusu almış hüquqi şəxs sonrakı fəaliyyəti dövründə bununla bağlı müəyyən edilmiş şərtlərə əməl olunmasına mane olan və fəaliyyətinə mənfi təsir göstərən amillər barədə gömrük orqanlarına məlumat verməlidir.

# JPMorgan-dan neft xəbərdarlığı

JPMorgan Rusiyanın neft hasilatını azaltmasından sonra bu il Brent markalı neftin qiymətinin 100 dollara çata biləcəyini proqnozlaşdırıb.

Qlobal maliyyə xidmətləri şirkəti "JPMorgan" Brent markalı neftin qiymətilə bağlı xəbərdarlıq edib.

JPMorgan bildirib ki, Rusiyanın hasilatı azaltmaq qərarı digər ölkələrin tədbirləri ilə balanslaşdırılmasa, Brent markalı neftin qiyməti 100 dollara yüksələ bilər.

JPMorgan-ın analitiklərinə görə, Moskvanın addımlarının təsiri ilə Brent markalı neftin qiyməti may ayında 90 dollara, sentyabrda isə 100 dollara çata bilər.




# Çində ÜDM-in artım sürəti 2024-cü ildə yavaşlayacaq



Dünya Bankının proqnozuna görə, Çin ÜDM-inin artım tempi 2024-cü ildə keçən ilki 5.2%-dən 4.5%-ə enəcək. "İqtisadiyyat yüksək borc yükü, daşınmaz əmlak sektorunda zəiflik və dünyada ticarət gərginliyi səbəbindən təzyiq altındadır", - DB-nin hesabatında qeyd olunur.

Şərqi Asiya və Sakit Okean regionunun inkişaf etməkdə olan ölkələrində ÜDM artımı 2023-cü ildəki 5.1%-dən bu il 4,5% səviyyəsində proqnozlaşdırılır. Çin istisna olmaqla, artım tempinin keçən il 4.4%-dən 4.6%-ə qədər sürətlənəcəyi gözlənilir.

Sorğuya Şərqi Asiya və Sakit Okean hövzəsindəki inkişaf etməkdə olan ölkələr dünyanın qalan hissəsinə nisbətən daha sürətli, lakin pandemiyadan əvvəlkindən daha yavaş inkişaf edir. Qlobal ticarətdə canlanma və maliyyə şərtlərinin yumşaldılması bu iqtisadiyyatları dəstəkləsə də, artan proteksionizm və siyasətdəki qeyri-müəyyənlik artımı geridə qoyacaq.

# Qlobal qaz bazarında tədarük rekord göstəriciyə çatacaq



Qlobal bazarlar qışın isti keçməsi səbəbindən həddindən artıq qaz təchizatı ilə üzləşib. Bu barədə CNBC kanalı analitiklərə istinadən məlumat yayıb.

"Qlobal təbii qaz qiymətləri ABŞ, Avropa və Şimali Asiya kimi regionlarda mülayim qışa görə aşağı düşür", – "S&P Global" Asiyada inkişaf etməkdə olan qaz və mayeləşdirilmiş təbii qaz (LNG) bazarlarının rəhbəri Zhi Xin Çonq (Zhi Xin Chong) deyib. "Morgan Stanley" proqnozlaşdırır ki, mayeləşdirilmiş təbii qaz istehsalının genişləndirilməsi sayəsində yaxın illərdə qlobal qaz bazarında həddən artıq tədarük rekord göstəriciyə çatacaq.

# "Beyin ölümü diaqnozunun təyininə multidissiplinar yanaşma" mövzusunda seminar keçirilib

***29 mart 2024-cü il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Beyin ölümü diaqnozunun təyininə multidissiplinar yanaşma" mövzusunda seminar keçirilib.***

Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkim Bəxtiyar Musayev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasova, Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin sədri, t.ü.f.d. Zəhra Vəzirova, həkimlər, reanimatoloqlar və tibb işçiləri iştirak ediblər.






Tədbirin rəsmi açılış hissəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., əməkdar həkim Ceyhun Məmmədov çıxış edərək, çox vacib və önəmli mövzuya həsr edilmiş bu tədbirin təşkili üçün Səhiyyə Nazirliyinin Transplantasiya Mərkəzinə və Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinə təşəkkürünü bildirib.

Ceyhun Məmmədov 2021-ci ildə Azərbaycan alimi, tibb elmləri doktoru Fəxrəddin Cavadovun 70 illiyinə həsr olunmuş, daha sonra 2022-ci ildə beyin ölümünə həsr olunmuş belə bir tədbirin keçirilməsini, ötən il isə böyük marağa səbəb olan Dəyirmi masanın keçirilməsini də xatırladıb, qeyd edib ki, bu mövzu hazırda çox aktualdır və transplantologiyada beyin ölümü diaqnozunun nə vaxt, hansı hallarda və kim tərəfindən qoyulması çox mühüm məsələdir.

Daha sonra rəsmi hissədə çıxış edən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasova və Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin sədri, t.ü.f.d. Zəhra Vəzirova da mövzunun aktuallığına dair fikirlərini bölüşərək, Tibbi Xidmət İdarəsinin rəhbərliyinə mühüm əhəmiyyətli mövzulara dair həyata keçirilən davamlı tibbi təhsil tədbirlərinə görə təşəkkür ediblər.

Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova bildirib ki, hazırda orqan köçürülməsi əməliyyatının icrasını gözləyən bir çox xəstələr üçün donor tapılmasında beyin ölümü diaqnozunun qoyulmasına böyük ehtiyac var. Bu işdə reanimatoloqların üzərinə düşən işləri xüsusi qiymətləndirən Y.Abbasova qeyd edib ki, bugünkü seminardan sonra bu işin başlanması gözlənilir və həkimlər orqan gözləyən pasiyentlərinə köməkliklərini göstərə biləcək.

Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin sədri Zəhra Vəzirova çıxışında beyin ölümü diaqnozunun qoyulmasını çox dərin və etik cəhətdən mürəkkəb mahiyyətə malik olduğunu bildirərək, buna incə yanaşmaq lazım olduğunu deyib.

Rəsmi hissədən sonra seminarın elmi hissəsi öz işinə başlayıb. Elmi hissədə Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan transplantasiyası şöbəsinin rəisi, t.ü.f.d., ümumi cərrah, transplantoloq Dr. Mircəlal Kazımi "Beyin ölümü diaqnozunun klinik əhəmiyyəti", Mərkəzi Gömrük Hospitalının anestezioloq-reanimatoloqu Dr. Mehdi Əliyev "Beyin ölümü diaqnozunun qoyulmasına praktik yanaşma və təcrübəmiz" və Mərkəzi Gömrük Hospitalının Radiologiya şöbəsinin rəisi, uzman radioloq Dr. Eldəniz Hüseynov "Beyin ölümü diaqnozunun təyinində instrumental diaqnostik müayinələrin yeri" mövzularında təqdimatlarla çıxış ediblər.

Seminar Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları" əsasında akkreditasiya olunaraq 4 DTT balı ilə qiymətləndirilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**


# E L A N

**"AZSIGORTA ASC" "Eurohome" MMC-nin (Bakı şəhəri, Binəqədi rayonu, Sulutəpə qəsəbəsi 1 VÖEN 1000018351) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə iddia ərizəsi ilə müraciət etmişdir.**

**E-2-2 (113)-2016/2024 saylı kommersiya işi hakim, cənab Kənan Hüseynovun icraatında olmaqla, 22.04.2024-cü il tarixə saat 15.30 -a məhkəmə hazırlıq iclası təyin etmişdir.**





**Azəri Light və Brent markalı neftin bir barelinin 22 mart – 3 aprel tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**


**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500